# TƏLƏBƏLƏRDƏ MƏNƏVİ ŞÜUR VƏ NÜMUNƏVİ DAVRANIŞIN FORMALAŞDIRILMASI BAXIMINDAN MÖVCUD ƏDƏBİYYATIN TƏHLİLİ

**Teymur Səmədov,**
*fəlsəfə doktoru hazırlığı üzrə dissertant*
*Sumqayıt Dövlət Universiteti*
E-mail: susa_aslanova@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər:*** *ədəbiyyatın təhlili, mənəvi şüur, nümunəvi davranış, tələbə, mənəvi şüurun formalaşdırılması, nümunəvi davranışın formalaşdırılması,*

***Ключевые слова:*** *анализ литературы, нравственное сознание, образцовое поведение, студент, формирование нравственного сознания, формирование образцового поведения*

***Keywords:*** *analysis of literature, moral consciousness, exemplary behavior, student, formation of moral consciousness, formation of exemplary behavior*

Təhsilalanlarda, o cümlədən tələbələrdə mənəvi şüurun və nümunəvi davranışın formalaşdırılması probleminin işlənmə səviyyəsini öyrənmək üçün mövcud ədəbiyyat nəzərdən keçirilməlidir. Bu baxımdan xalqımızın görkəmli alimi, pedaqogika sahəsində tanınmış tədqiqatçı Z.İ. Qaralovun əsərləri diqqəti cəlb edir. Prof. Z.İ. Qaralov bir sıra digər çoxsaylı əsərlərlə yanaşı "İdeologiya və mənəviyyat" (1), üç cilddən ibarət "Tərbiyə" trilogiyasının (2; 3; 4) müəllifidir.

Perofessor "İdeologiya və mənəviyyat" monoqrafiyasında Ümummilli liderimiz Heydər Əliyevin formalaşdırdığı mütərəqqi ideologiya və əxlaq sistemi; Heydər Əliyevin ideoloji-siyasi-mənəvi-əxlaqi sisteminin Azərbaycan şəraitinə tətbiqi, onun nəticələri; ümumbəşəri mənəvi dəyərlərin əsasları; Məhəmməd peyğəmbərin insanlığa qalmış mirası; İslam mənəviyyatındakı ümumbəşəri dəyərlər, qadağalar və haramlar; İslam ilahi dünyagörüşündən və mənəviyyatından yaranmış hikmət xəzinəsi barədə və s. məsələlərin üzərində dayanmış, əsərə Ulu öndərin ideoloji-siyasi sistemindən yaranmış əxlaq və davranış normalarının xüsusiyyətləri barədə ümumiləşdirilmiş elmi fikirlərini daxil etmişdir.

Ümummilli liderimiz *əxlaqi (mənəvi – T.S.) keyfiyyəti* xalqımızın ən böyük kapitalı hesab etmişdir. Ulu öndər insanları, gəncləri, o cümlədən tələbələri *saf əxlaqa* yiyələnməyə səsləyirdi.

Ümummilli liderimiz Heydər Əliyev nümunəvi davranışa malik olmaq üçün milli mənlik şüuruna sahib olmağı məqsədəuyğun hesab edirdi: "hər bir fərd *saf əxlaqın* mənasını *dərk edərsə* və öz *davranışını* milli mənəviyyat normalarına *davranışını* milli mənəviyyat normalarına uyğunlaşdırarsa, ölkədə həmişə əmin-amanlıq, bin-bərəkət olar". Yəni başqa sözlə, insanlar ədəb-ərkana, yüksək mənəviyyata yiyələnər, onların cəmiyyətdə, ailədə davranış və rəftarı ölçülü-biçimli, kamil olar.

Doğrudan da, cəmiyyət ayrı-ayrı fər-dlərdən ibarətdir. Onlar nə qədər əxlaqlı, mənəviyyatca saf olarsa, cəmiyyət bir o qədər möhkəm, qüdrətli və sarsılmaz olar.

Z.İ. Qaralov haqqında danışılan monoqrafiyada insanların əxlaqına, mənəviyyat məsələlərinə aydınlıq gətirməklə yanaşı eyni zamanda əxlaqsızlığa, mənəviyyatsızlığa da öz münasibətini bildirmişdir. Professora görə, insanı düz yoldan azdıra bilən 4 güclü təsir vasitəsi mövcuddur və onlar indi də fəaliyyətdədirlər: nəfs, ciddi təhlil aparmadan verilən vədlərə inanmaq, tərifə inanmaq və icazəyə (tam sərbəstliyə) sevinməkdir (2, 134-137).

Z.İ. Qaralovun fikrincə, tərifin törədicisi, xidmətçisi yaltaqlıqdır (2, 136).

Professor Z.İ. Qaralov üççildlik "Tərbiyə" kitabının birinci cildində tədqiqatımızda bizi maraqlandıran problemlə bilavasitə bağlı olan *inam* tərbiyəsinin əsas vəzifələrinə münasibət bildirmiş, onun mahiyyətini və əhəmiyyətini açıqlamışdır. I cildə "İnam tərbiyəsi" yarımfəsli daxil edilmişdir. İnam tərbiyəsinə tərif verilir: "İnam – insani keyfiyyətlərin formalaşması

üçün güclü təsir vasitələrindəndir. İnam olmayanda insan daim tərəddüd içərisində yaşayır. Hər hansı məsələnin həllində qətiyyət göstərə bilmir, tez-tez fikrini və mövqeyini dəyişir. İnamı olmayan insanın işlərində ardıcıllıq olmaz. Heç bir işdə qətiyyət göstərə bilməz. İnsan həqiqətləri şüurlu dərk etməyincə onda həqiqi inam formalaşa bilməz. İnamın mənbəyi həqiqətlərin dərk olunmasıdır. Həqiqəti dərk edənə kimi insan daim axtarışda olur, tərəddüd içərisində yaşayır" (2, 135-136).

Professor insanda inamın yaranmasına təsir edən amilləri diqqət mərkəzinə gətirmişdir. Həmin amillər bunlardır: "əyani gördükləri, eşitdikləri, oxuduqları, özünün düşündükləri, təcrübədə sınadıqları" (2, 136).

Z.B. Göyüşovun "Əxlaqi sərvətlər" (5), "Həzz və iztirab" (6) və "Fəzilət və qəbahət" adlı monoqrafiyaları da araşdırdığımız problem baxımından təhlil obyekti ola bilər. Monoqrafiyalarda determinizm və əxlaqi sərvətlər; əxlaqi tərəqqi və əxlaqi sərvətlər; mənalı həyat ən böyük sərvət kimi; xoşbəxtlik və ideal kimi məsələlərə; xeyirxahlıq və yaxşılıq: borc; vicdan, insaf və həya; şərəf, namus və ləyaqət; ədalət kimi əxlaqi kateqoriyalara münasibət bildirilir. Professor əxlaq normalarından danışarkən yazır: "Sadə əxlaq normaları tarixdə zəhmətkeş xalq kütlələrinin zəruri, təbii həyat qanunları olduğu halda, istismarçı siniflər üçün xarici görsəniş pərdəsi olmuşdur" (5, 47).

Həzz və iztirab" əsərinin "Əxlaqi borcun yerinə yetirilməsi – mənəvi həzz mənbəyidir" və "Ailə, məhəbbət və dostluq – tükənməz həzz mənbələridir" yarımfəsilləri xüsusilə maraq doğurur.

Professor yazır: "Mən bu əqidəyəm ki, əxlaqi borcun yerinə yetirilməsindən, fəzilətli hərəkətlərdən alınan həzzi heç nə ilə əvəz etmək olmaz. Bu cür hərəkətlərdən alınan həzlər insan ləyaqətini yüksəldir. Yalnız bu cür hərəkətlərdən sonra insan fəxr etməyə daha çox haqlı olur" (6, 266).

Z.B. Göyüşov qənaətlərində tamamilə haqlıdır. Doğrudan da, "əxlaqi borcun yerinə yetirilməsindən, fəzilətli hərəkətlərdən alınan həzz" heç nə ilə əvəz oluna bilməz, çünki fəzilətli hərəkətlər insanlara, o cümlədən tələbə gənclərə yalnız və yalnız baş ucalığı, hörmət və nüfuz gətirər.

Biz elmi təhlilə cəlb etdiyimiz problemlə bağlı respublikamızda aparılan tədqiqatlara, dissertasiya əsərlərinə də münasibət bildirməyi vacib sayırıq. Tədqiqatların böyük qismi mənəvi tərbiyə məsələlərinə, mənəvi tərbiyənin tərkib hissələrinə [təhsilalanlarda, müxtəlif yaşlı uşaqlarda, yeniyetmə və gənclərdə vətənpərvərliyin, hərbi vətənpərvərliyin, mərdlik və qəhrəmanlığın, qayğıkeşliyin, səxavətin, düzlük və doğruçuluğun, böyüyə hörmətin, şərəf və ləyaqətin, milli mənlik şüurunun, əməksevərliyin, mənəvi inamın, yoldaşlıq və dostluğun, humanizmin və s. tərbiyə olunmasına; yaxud ümumiyyətlə, tərbiyə məsələlərinə, həmçinin ümumi tərbiyənin tərkib hissələrinə (estetik tərbiyə, fiziki tərbiyə, əmək tərbiyə, hüquq tərbiyəsi, iqtisadi tərbiyə, ekoloji tərbiyə, ideya-siyasi tərbiyə və əqli tərbiyəyə)] həsr edilmişdir.

Biz yalnız sırf mənəvi tərbiyəyə, mənəvi keyfiyyətlərin formalaşdırılmasına aid bəzi dissertasiyaları yada salmaqla kifayətlənib, bilavasitə tədqiqatımızda nəzərdən keçirdiyimiz problemi (milli şüurun və milli davranışın formalaşdırılmasını) özündə ehtiva edən tədqiqatları təhlil edəcəyik. Bu məqsədlə hər şeydən əvvəl, elmlər doktoru elmi dərəcəsi almaq üçün yazılmış və müdafiə olunmuş dissertasiyalarla nəzər yetirdik.

Prof. A.N. Abbasov hələ 1995-ci ildə "Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi" mövzusunda dissertasiya (7) müdafiə etmişdir. Müəllif problemin nəzəri və praktik məsələlərini araşdırmaqla yanaşı, əsərində ümumtəhsil məktəbləri şagirdlərini mənəvi baxımdan ailə həyatına hazırlamaq kimi mühüm məsələni diqqət mərkəzinə gətirmişdir. A.N. Abbasov dissertasiyada məhəbbətə ailənin mənəvi əsası, nikaha - ailənin hüquqi əsası kimi yanaşmışdır. Digər məsələlərlə bərabər əsərdə ailə üzvlərində mənəvi şüurun və mənəvi davranış təcrübəsinin formalaşdırılmasını məqsədəuyğun hesab etmiş, sevənlərin davranış mədəniyyəti, oğlan və qızlar arasında psixoloji məsafə məsələlərinə münasibət bildirmişdir.

Prof. S.M. Quliyev "Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb, ictimaiyyətin və əmək kollektivlərinin əlbir fəaliyyətinin nəzəri əsasları"; L.N. Qasımova "Orta ümumtəhsil məktəbləri şagirdlərinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyəsi və təcrübəsi" mövzularında dissertasiyalar müdafiə etmişlər.

Prof. N.M. Muxtarova öz dissertasiyasını "Məktəblilərdə milli şüurun formalaşdırılması və milli ləyaqət hisslərinin tərbiyə olunması üzrə işin sistemi”nin formalaşdırılması kimi mühüm məsələyə həsr etmişdir.

Prof. A.M. Həsənovun dissertasiyası “Azərbaycan uşaq ədəbiyyatında əks olunmuş mənəvi dəyərlərdən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə üzrə işin sistemi” (1999) adlanır.

Bu baxımdan fəlsəfə doktoru (vaxtilə elmlər namizədi) elmi dərəcəsi almaq üçün yazılmış və müdafiə olunmuş dissertasiyalar da az maraq kəsb etmir.

G.V. Abbasova kiçik yaşlı məktəblilərdə mənəvi inamın formalaşdırılması problemini tədqiqata cəlb etmiş; S.A. Abdullayeva – şagirdlərdə milli mənlik şüurunun formalaşdırılmasında sinifdənxaric tədbirləri mühüm vasitə kimi diqqət mərkəzinə gətirmişdiR. R. Abdulov – humanitar fənlərin tədrisi prosesində yeniyetmələrin fəal həyat mövqeyinin formalaşdırılması; R. Ağayev - yuxarı sinif şagirdlərinin Azərbaycan xalqının inqilabi və döyüş ənənələri əsasında tərbiyəsi; F.M. Allahverdiyeva - kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsində məktəb və ailənin əlbir işi; M. Aslanov - yuxarı sinif şagirdlərində mənəvi şüurla mənəvi davranışın vəhdətinin formalaşdırılması; R. Babayev – fiziki tərbiyə fənninin tədrisi prosesində yeniyetmələrin milli-mənəvi tərbiyəsi üzrə işin imkanları və yolları; T. Cahangirova - kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsində bədii nümunələrindən istifadə; O.Q. Həsənli - diyarşünaslıq materiallarından istifadə şagirdlərinin mənəvi tərbiyəsinin vasitəsi kimi; S.H. Həsənova - kiçik yaşlı məktəblilərin davranış mədəniyyətinin tərbiyəsi üzrə işin imkanları və yolları; X.A. Qazıyeva - Şərq tərbiyə ənənələri şagirdlərdə mənəvi keyfiyyətləri formalaşdırmağın vasitəsi kimi; Ş. Məmmədov - şagirdlərin əxlaq tərbiyəsində milli dəyərlərdən istifadə; E.Ə. Mollayeva - yeniyetmə qızlarda şərəf və ləyaqət hisslərinin tərbiyə olunması üzrə işin sistemi; S.B. Allahverdiyeva – tələbə gənclərin ləyaqət tərbiyəsinə bədiim ədəbiyyatın təsiri (Azərbaycan ədəbiyyatı materialları üzrə); Q.H. Tağıyeva - məktəblilərin mənlik hissinin tərbiyəsində milli və ümumbəşəri dəyərlərin əlaqələndirilməsi; R. Vəliyev - yuxarı sinif şagirdlərinin mənəvi tərbiyəsinin formalaşdırılmasının imkanları və yolları istiqamətində tədqiqat apararaq müdafiə etmişlər.

Adları çəkilən elmlər doktoru və fəlsəfə doktoru (namizədlik) hazırlıqları üzrə dissertasiyaların bəzi məqamlarına diqqəti yönəldək. Prof. N.M. Muxtarovanın “Məktəblilərdə milli şüurun formalaşdırılması və milli ləyaqət hisslərinin tərbiyə olunması üzrə işin sistemi” mövzusunda dissertasiyasında tədqiqatın məqsəd və vəzifələri belə müəyyənləşdirilmişdir:

“1. Əxlaqi (ruhi) təzahür kimi milli şüurun mahiyyətini və səciyyəvi cəhətlərini müəyyən etmək, təlim, tərbiyə və şəxsiyyətin sosiallaşması proseslərində məktəblilərdə onun (*milli şüurun - T.S.)* formalaşdırılmasının özünəməxsusluğunu aşkara çıxarmaq. 2. Cəmiyyətdə baş verən real proseslərlə pedaqoji elmin qarşısına qoyulan daha aktual məsələləri aşkarlamaq. 3. Məktəblilərdə milli ləyaqət hisslərinin formalaşdırılmasının obyektiv və subyektiv tərəflərini təhlil etmək; bu zaman milli xudpəsəndliyi, milli məhdudluq və milli nihilizmi kənarlaşdırmaq; problemin həlli zamanı ümumbəşəri və milli dəyərlərin nisbətini müəyyənləşdirmək. 4. Yuxarı, orta və ibtidai sinif şagirdlərində milli şüurun və milli ləyaqətin formalaşdırılmasına istiqamətlənən sinifdənxaric tədbirlərin parametrlərini, səciyyəvi cəhətlərini müəyyənləşdirmək və onların metodik cəhətdən əsaslandırmaq” (8).

Əsər nəzəri və praktik əhəmiyyətə malikdir.

M. Aslanovun dissertasiyası ilə tanış olduq. Müəllif öz tədqiqatında yuxarı sinif şagirdlərinin mənəvi şüur və mənəvi davranışının vəhdətini əhatə etməyi qarşısına məqsəd qoyub. Əsər tədqiq etdiyimiz problemlə bilavasitə əlaqədar olan işdir. Fəqət tədqiqedilmə üsuluna görə bu dissertasiyalar bir-birindən fərqlənir.

Əvvəla, M. Aslanov - yuxarı sinif şagirdlərini, biz isə, ali məktəb tələbələrini tədqiqata cəlb etmişik. İkincisi, M. Aslanov 17-18 il bundan əvvəl, biz isə, müasir şəraitdə, yeni pedaqoji təfəkkürün, yeni tərbiyə texnologiyalarının tətbiqinin tələbləri nəzərə alınmaqla araşdırmalar aparmışıq. Üçüncüsü, M. Aslanov müstəqilliyimizə qədərki proqram və dərslikləri, biz isə müasir, bu günümüzlə səsləşən proqram və dərslikləri təhlil süzgəcindən keçirmişik.

M. Aslanovun əsəri ittifaqa daxil olduğumuz dövrdə hazırlanıb. Əsər müstəqilliyimizi

elan etməzdən bir qədər əvvəl müdafiə edilib. Ona görə də köhnə ab-havadan xali deyildir.

Dördüncüsü, biz auditoriyadankənar tədbirləri, M. Aslanov isə, sinifdənxaric tədbirləri əhatə edib.

S.B. Allahverdiyevanın qənaətincə, ləyaqət əxlaq tərbiyəsinin tərkib hissəsi olduğundan ləyaqət tərbiyəsinə aid bütün məsələlər *əxlaq* və *mənəviyyat* məsələləri sistemində həll edilməlidir" (9, 11). Fikrimizcə, əxlaq tərbiyəsinin tərkib hissəsi l*əyaqət* deyil, *ləyaqət tərbiyəsi* ola bilər. Ləyaqət əxlaq tərbiyəsinin deyil, bilavasitə əxlaqın özünün tərkib hissəsidir.

E.Ə. Mollayevanın tədqiqat əsəri "Yeniyetmə qızlarda şərəf və ləyaqət hisslərinin tərbiyə olunması üzrə işin sistemi" adlanır. Tədqiqatın qarşısındakı vəzifələrlə tanış olaq: şərəf və ləyaqət anlayışlarının fəlsəfi-sosioloji və pedaqoji-psixoloji mahiyyətini açıqlamaq; yeniyetmə qız şəxsiyyətinin inkişafı və formalaşmasına şərəf və ləyaqət hisslərinin aşılanmasının vasitələr sistemini müəyyənləşdirmək; təlim prosesində, dərsdənkənar tədbirlər zamanı və ailədə yeniyetmə qızlara şərəf və ləyaqət hisslərinin aşılanması üzrə işin səmərəli yollarını işləmək; problem baxımından mövcud proqram və dərsliklərin, elmi-pedaqoji və metodik ədəbiyyatın imkanlarını araşdırmaq; ümumtəhsil məktəblərində mövcud vəziyyəti öyrənmək və təhlil etmək; yeniyetmə qızlarda şərəf və ləyaqət hissləri tərbiyə işləmək" (10 , 4-5).

Bu tədqiqatda da önəmli məsələlərə münasibət bildirilir.

MDB məkanına daxil olan ölkələrdə dissertasiyada nəzərdən keçirdiyimiz problemlə bilavasitə və bilvasitə bağlı olan bir çox əsərlər yazılmışdır. Belə ki, İ.V. Surikova 2006-cı ildə Yelets şəhərində "Məktəbəqədər təhsil müəssisələrinin 6-7 yaşlı uşaqlarında mənəvi şüurun ilkin formalaşdırılması" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

L.V. Çepikovanın dissertasiya əsəri məktəbəqədər yaşlı uşaqlar da tərbiyə məsələlərinə həsr olunmuşdur. Belə ki, dissertasiya müəllifi böyük məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlarda mənəvi mədəniyyətin əsaslarının tərbiyəsi üzrə işin pedaqoji əsaslarını tədqiq etmişdir.

L.V. Çepikova öz dissertasiyasında ilk növbədə problemin nəzəri əsaslarını araşdırır. Bu məqsədlə dissertasiyanın I fəslində tədqiqatın koteqorial-anlayış aparatına aydınlıq gətirir, tarixi-pedaqoji irsdə şəxsiyyətin mənəviyyatının tərbiyəsi probleminə nəzər salır; mənəvi mədəniyyətin əsaslarının tərbiyəsi xüsusiyyətlərini araşdırır; uşaq bağçası və məktəbin qarşılıqlı fəaliyyətinə uşaqlarda mənəvi mədəniyyətin əsaslarının varislik əsasında tərbiyəsinin şərti kimi yanaşır. Dissertasiyanın II fəsli "Böyük məktəbəqədər yaşlı və kiçil məktəb yaşlı uşaqlarda mənəvi mədəniyyətin əsaslarının tərbiyə olunması prosesi" adlanır. bu fəsildə pedaqoji təcrübədə tədqiq olunan problemin vəziyyəti təhlil olunur; uşaqlarda mənəvi mədəniyyətin əsaslarının səmərəli tərbiyə edilməsinin pedaqoji şərtləri diqqət mərkəzinə gətirilir və eksperimentin nəticələri təqdim olun

Dissertasiyanın mövzusundan göründüyü kimi, İ.V. Suşkova 6-7 yaşlı uşaqlarda ilkin mənəvi şüurun formalaşdırılması problemini tədqiqatının obyektinə çevirmişdir.

Bu tədqiqatın məqsədi - 6-7 yaşlı uşaqlarda ilkin mənəvi şüurun formalaşdırılması konsepsiyasının nəzəri-metodoloji baxımdan işlənməsindən və metodik cəhətdən əsaslandırılmasından ibarətdir.

İ.V. Suşkova dissertasiyada 6-7 yaşlı uşaqların ilkin mənəvi şüurunun formalaşdırılması konsepsiyasının etik-fəlsəfi, psixoloji, pedaqoji və metodik baxımdan hazırlanması məsələlərini də nəzərdən keçirir. Uşaqların ilkin mənəvi şüurunun formalaşdırılması məqsədilə bu işin məzmununu, metod və priyomlarının təkmilləşdirilməsini məqsədəuyğun hesab edir.

N.B. Kolesnikovanın tədqiqatı kiçik yaşlı məktəbliləri əhatə edir. Müəllif dissertasiyasında "Kiçik yaşlı məktəblilərin fərdi mənəvi şüurunun formalaşdırılmasının pedaqoji əsasları"na aydınlıq gətirir.

S.V. Alabjin öz tədqiqatında "Ümumtəhsil orta məktəbdə yuxarı sinif şagirdlərinin şəxsiyyətinin mənəvi formalaşdırılmasının pedaqoji şərtləri"ni (190) araşdırmışdır. Əsər məktəblilərin mənəvi tərbiyəsi problemini tədqiq etmək, məktəblilərdə mənəvi keyfiyyətlərin formalaşdırılması üzrə işin sistemini əsaslandırmaq və işləmək məqsədi daşıyır. Bunun üçün şəxsiyyətin mənəvi baxımdan formalaşdırılması problemi üzrə fəlsəfi, psixoloji-pedaqoji ədəbiyyat təhlilə cəlb edilir; şəxsiyyətin mənəvi keyfiyyətlərinin inkişafının təhsil prosesinin elementləri ilə qarşılıqlı əlaqəsi aşkara çıxarılır; təhsilin vasitələri

ilə məktəbli şəxsiyyətinin mənəviyyatının pedaqoji şərləri müəyyənləşdirilir; həmçinin nəticələrin eksperimental yoxlanılması həyata keçirilir, yuxarı sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin formalaşdırılması üzrə praktik tövsiyələr təqdim olunur.

İ.M. Bormotova və S.Y. Stepanovanın araşdırmaları fəlsəfi aspektdədir. Belə ki, İ.M. Bormotovanın namizədlik dissertasiyası "Şəxsiyyətin əxlaqi şüuru"; S.Y. Stepanovanın tədqiqatı "Müasir şəraitdə gənclərin mənəvi şüuru və davranışı" adlanır.

S.Y. Stepanovanın dissertasiyasında aşağıdakı vəzifələr həll olunur: gənclərin şüurunda və davranışında norma və kənaraçıxmalar (deviasiya) probleminə nəzəri-metodoloji yanaşmaları ümumiləşdirmək; sosial-fəlsəfi təhlil əsasında müasir gənclərin şüurunda və davranışında baş verən dəyişikliklərin mahiyyətini açmaq; gənclərin davranışındakı müsbət və mənfi cəhətləri seçib ayırmaq; gənclərin mənəvi şüurunun və davranışının formalaşdırılmasında mənfi halların aradan qaldırılmasının əsas istiqamətlərini nəzərdən keçirmək.

Mövcud ədəbiyyatla tanışlıq göstərdi ki, istər respublikamızda, istərsə də MDB məkanına daxil olan ölkələrdə tədqiqata cəlb etdiyimiz problemlə bilavasitə və bivasitə bağlı olan tədqiqat əsərləri yazılsa da, bizim tədqiqat öz aktuallığı ilə seçilir, həmin aspektdə, ali məktəb tələbələri əhatə olunmaqla tədqiqatlar aparılmamışdır.

**Problemin aktuallığı.** Tələbələrdə mənəvi şüur və nümunə**vi** davranışın formalaşdırılması baxımından mövcud ədəbiyyatla tanışlıq baxımından faydalıdır.

**Problemin yeniliyi.** Tələbələrdə mənəvi şüur və nümunəvi davranışın formalaşdırılması baxımından mövcud ədəbiyyatın təhlili aparılır ki, bu problemin işlənmə səviyyəsi barədə aydın təsəvvür yaradır.

**Problemin praktik əhəmiyyəti. T**ələbələrdə mənəvi şüur və nümunə**vi** davranışın formalaşdırılması problemi ilə bağlı tədqiqat aparan doktorant və dissertantlara öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Qaralov Z.İ. İdeologiya və mənəviyyat. Bakı: Hüquq ədəbiyyatı, 2008.
2. Qaralov Z.İ. Tərbiyə: prinsiplər, məzmun, metodika. I cild. Bakı: Pedaqogika, 2003.
3. Qaralov Z.İ. Tərbiyə: prinsiplər, məzmun, metodika. II cild. Bakı: Pedaqogika, 2003.
4. Qaralov Z.İ. Tərbiyə: prinsiplər, məzmun, metodika. III cild. Bakı: Pedaqogika, 2003.
5. Göyüşov Z.B. Əxlaqi sərvətlər. Bakı: Azərnəşr, 1966.
6. Göyüşov Z.B. Həzz və iztirab. Bakı, 1969.
7. Abbasov A.N. Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi: Ped.ü.elm.dok. ...dis. Bakı, 1995.
8. Muxtarova N.M. Məktəblilərdə milli şüurun formalaşdırılması və milli ləyaqət hisslərinin tərbiyə olunması üzrə işin sistemi"nin formalaşdırılması: Ped.ü.elm.dok. …dis.avtoref. Bakı, 1995.
9. Allahverdiyeva S.B. Tələbə gənclərin ləyaqət tərbiyəsinə bədiim ədəbiyyatın təsiri (Azərbaycan ədəbiyyatı materialları üzrə): Ped.ü.fəls.dok. ...dis. Bakı, 1996.
10. Mollayeva E. Ə. Yeniyetmə qızlarda şərəf və ləyaqət hisslərinin tərbiyə olunması üzrə işin sistemi: Ped. elm.nam. ... dis. avtoref. Bakı, 2006.


**Т.Г. Самедов**

## АНАЛИЗ СУЩЕСТВУЮЩЕЙ ЛИТЕРАТУРЫ С ТОЧКИ ЗРЕНИЯ ФОРМИРОВАНИЯ ОБРАЗЦОВОГО ПОВЕДЕНИЯ И НРАВСТВЕННОГО СОЗНАНИЯ У СТУДЕНТОВ

***РЕЗЮМЕ***

Существующая литература была проанализирована и рассмотрена с целью, изучения уровня разработки проблемы формирования нравственного сознания, и образцового поведения у студентов и обучаемых. Автор статьи познакомился с монографиями и диссертациями, написанными как в Азербайджане, так и в странах СНГ. В центре внимания автора находятся исследовательские работы З.И. Гаралов, З.Б. Гёюшова, А.Н. Аббасов, О.Г. Гасанли, Л.Н. Гасымовой, С.М. Гулиева Н.М. Мухтаровой, Г.В. Аббасовой, Э.А. Моллаевой, И.В. Суриковой, Л.В. Чепиковой, И.В. Сушковой, Н.Б. Колесниковой, С.В. Алабжина, И.М. Бормотовой, С.Ю. Степановой и других.

**T.G. Samadov**

## ANALYSIS OF EXISTING LITERATURE FROM THE POINT OF VIEW OF THE FORMATION OF SAMPLE BEHAVIOR AND MORAL CONSCIOUSNESS IN STUDENTS

***SUMMARY***

The existing literature was analyzed and examined with the aim, to study the level of development of the problem of the formation of moral consciousness, and exemplary behavior among students and trainees. The author of the article got acquainted with monographs and dissertations, written both in Azerbaijan and CIS countries. The author focuses on the research work of Z.I. Garalov, Z.B. Gyoushova, A.N. Abbasov, O.G. Hasanli, L.N. Gasymova, S.M. Guliyeva N.M. Mukhtarova, G.V. Abbasova, E.A. Mollayeva, I.V. Surikova, L.V. Chepikova, I.V. Sushkova, N.B. Kolesnikova, S.V. Alabzhina, I.M. Bormotova, S.Yu. Stepanova and others.

**Redaksiyaya daxil olub:** 05.02.2018